*Layihə*

# Azərbaycan Respublikasının üçüncü milli hesabatı

## I. Hesabatın hazırlanma prosesi

1. Azərbaycan Respublikası Prezidentinin 6 sentyabr 2017-ci il tarixli Sərəncamına uyğun olaraq Universal Dövri İcmal (bundan sonra UDİ) mexanizmi çərçivəsində Azərbaycan Respublikasının üçüncü milli hesabatının hazırlanması üçün dövlət qurumlarının, İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatının və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının nümayəndələrindən ibarət İşçi qrup yaradılmışdır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi üçüncü milli hesabatın hazırlanmasını koordinasiya etmişdir.

2. Birləşmiş Millətlər Təşkilatının (BMT) "İnsan Hüquqları Şurasının universal dövri icmal haqqında 16/21 saylı qətnaməsinin davamı" adlı 17/119 saylı qətnaməsinə uyğun olaraq üçüncü milli hesabatda ikinci hesabat zamanı qəbul edilmiş tövsiyələrin yerinə yetirilməsi haqqında, həmçinin ölkədə insan hüquqlarının qorunması və təşviq edilməsi sahəsində son nailiyyətlər haqqında məlumat əks olunur.

3. 2016-cı ildə BMT-in insan hüquqları üzrə ali komissarının ofisinə UDİ mexanizmi çərçivəsində Azərbaycan Respublikasının ikinci hesabatı zamanı qəbul edilmiş tövsiyələrin yerinə yetirilməsi üzrə Azərbaycan Respublikasının aralıq məruzəsi təqdim olunmuşdur.

4. Vətəndaş cəmiyyəti və qeyri-hökumət təşkilatları (QHT) tərəfindən Üçüncü milli hesabata dair şərhlərin verilməsi üçün onun layihəsi Xarici İşlər Nazirliyinin internet səhifəsində yerləşdirilmişdir.

## II. İnsan hüquqları sahəsində tədbirlər və tövsiyələrin yerinə yetirilməsi

5. 2013-cü ildə Azərbaycan Respublikası İnsan Hüquqları Şurasının (İHŞ) bütün xüsusi proseduralar üzrə mandat daşıyıcılarına daimi dəvətnamə göndərmişdir.

Son 4 il ərzində aşağıda qeyd olunan səfərlər həyata keçirilmişdir:

- 26 noyabr – 5 dekabr 2013-cü il – BMT-nin qadınlara qarşı zorakılıq, onun səbəbləri və nəticələri üzrə xüsusi məruzəçisinin səfəri

- 19-24 may 2014-cü il – BMT-nin məcburi köçkünlərin hüquqları üzrə xüsusi məruzəçisinin səfəri

- 16-24 aprel 2015-ci il – BMT-nin İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitəsinin nümayəndə heyətinin səfəri

- 16-25 may 2016-cı il – BMT-nin özbaşına həbslər üzrə İşçi qrupunun səfəri

- 14-22 sentyabr 2016-cı il – BMT-nin insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisinin səfəri

- 29 mart – 8 aprel 2016-cı il – İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin nümayəndə heyətinin səfəri
- 3-7 iyul 2017-ci il – Avropa Şurasının milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası üzrə Məşvərətçi Komitəsinin nümayəndə heyətinin səfəri

- 2015-ci ilin fevral ayında BMT-nin içməli su və sanitariya hüququ üzrə xüsusi məruzəçisinin səfəri razılaşdırılmışdır. Sıx qrafiklə bağlı məruzəçinin xahişi ilə səfər ləğv olunmuşdur.

- Azərbaycan tərəfi BMT-nin dinc toplaşma və birləşmə azadlığı hüquqları üzrə xüsusi məruzəçisinə ölkəyə 2016-cı ilin noyabr-dekabr aylarında səfər etməyi təklif etmişdir. Məruzəçinin xahişi ilə səfər başqa vaxta təxirə salınmışdır.

6. Son 4 il ərzində Azərbaycan Hökuməti tərəfindən aşağıdakı hesabatlar təqdim olunmuşdur:

- 2013-cü ildə "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiya"nın həyata keçirilməsi üzrə beşinci dövri hesabat təqdim edilmiş və 2015-ci ildə baxılmışdır;

- 2014-cü ildə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın həyata keçirilməsi üzrə dördüncü dövri hesabat təqdim edilmiş və 2015-ci ildə baxılmışdır;

- 2014-cü ildə "İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" Beynəlxalq Konvensiyanın həyata keçirilməsi üzrə yeddinci-doqquzuncu birgə dövri hesabatı təqdim edilmiş və 2016-cı ildə baxılmışdır;

- 2014-cü ildə "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın həyata keçirilməsi üzrə dördüncü dövri hesabat təqdim edilmiş və 2016-cı ildə baxılmışdır;

- 2016-cı ildə Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiyası üzrə dördüncü dövri hesabat təqdim edilmişdir.

- 2017-ci ildə BMT ali komissarının Ofisinə Azərbaycan Hökuməti tərəfindən yenilənmiş Ümumi Əsas Sənəd təqdim edilmişdir.

- Azərbaycan Respublikası Avropa Şurasının "Avropa Sosial Xartiyası"nın həyata keçirilməsi haqqında hər il hesabat təqdim edir.

7. 6 iyun 2017-ci ildə insan hüquqları üzrə ali komissar BMT-nin insan hüquqları Şurasının 35-ci sessiyasındakı çıxışı zamanı Azərbaycan Respublikasını BMT-nin müqavilə qurumlarına hesabatların təqdim olunması üzrə öhdəliklərini vaxtında yerinə yetirmiş 34 ölkə arasında qeyd etmişdir.

**İnsan hüquqları sahəsində beynəlxalq sənədlərə tərəf çıxılması**

8. İkinci UDİ baxışı həyata keçirildikdən sonra Azərbaycan Respublikası tərəfindən aşağıdakı beynəlxalq müqavilələr ratifikasiya edilmişdir:

- "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya"ya dəyişikliklərin edilməsi haqqında 15 saylı Protokol
- "Ekstradisiya haqqında" Avropa Konvensiyasına Üçüncü Əlavə Protokol
- "Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında" Konvensiya"ya düzəlişlər edilməsi haqqında Protokol
- "Terrorçuluğun qarşısının alınması haqqında" Avropa Şurası Konvensiyası
- Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında Konvensiyası"na Əlavə Protokol

9. Azərbaycan Respublikasının "Uşaqların hüquqları haqqında Konvensiya"nın şikayət ərizələri prosedurana dair Fakültativ Protokolda və "Bütün şəxslərin məcburi yoxolmalardan müdafiə üzrə Konvensiya"da iştirakı məsələsi hələ ki dövlət daxili razılaşdırıma tələb edir.

10. Azərbaycan Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutuna tərəf deyil, lakin bununla bərabər qəbul edir ki, mülki əhalinin müdafiəsi, insan hüquqlarına və humanitar hüquqa hörmət, həmçinin beynəlxalq cinayətlərə görə cəzasızlıqla mübarizə beynəlxalq sülh və təhlükəsizliyin dəstəklənməsinə köməklik edir və ümumiyyətlə beynəlxalq cəmiyyətin məsuliyyətidir.

11. Qeyd olunan səbəbdən Azərbaycan Respublikası 17 iyun-17 iyul 1998-ci ildə Romada keçirilən Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) yaradılması üzrə BMT himayəsi ilə səlahiyyətli nümayəndələrin diplomatik konfransında təmsil olunmuş və Konfransın yekun aktının qəbul olunmasında iştirak etmişdir. Azərbaycan Respublikası Beynəlxalq Cinayət məhkəməsinin fəaliyyəti prosesini müşahidə edir və hərtərəfli şəkildə Roma Statutuna tərəf dövlətlərin üzərinə düşən öhdəliklərin yerinə yetirilməsinə yardım məqsədi ilə BCM ilə effektiv əməkdaşlığın təminatı üzrə hüquqi mexanizmlərin qəbul imkanını hərtərəfli öyrənir.

12. Oktyabr 2006-cı ildə Azərbaycan Respublikasının təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında Konvensiyaya qoşulması haqqında 146IIIQ saylı Qanun qəbul olunmuşdur.

**Milli qanunvericiliyin təkmilləşdirilməsi**

13. Azərbaycan Respublikası bütün insan hüquqlarının və əsas azadlıqlarının universallığı, qarşılıqlı əlaqəsi və bölünməzliyi prinsiplərinə sadiqdir. Beynəlxalq səviyyədə qəbul olunmuş öhdəlikləri nəzərə alaraq, ölkə qanunvericiliyi, o cümlədən əsas insan hüquq və azadlıqlarının müdafiəsi sahəsindəki qanunvericilik beynəlxalq standartlara uyğun vəziyyətə gətirilir. Qanunvericiliyin təkmilləşdirilməsi prosesində, həmçinin BMT-in müvafiq mexanizmlərinin tövsiyələri nəzərə alınır.

14. Ölkə qanunvericiliyinin beynəlxalq öhdəliklərə uyğun vəziyyətə gətirilməsi məqsədi ilə hesabat dövrü ərzində aşağıdakı normativ hüquqi aktlar qəbul edilmişdir:

- Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi (2 iyul 2013-cü il)
- İnzibati Xətalar haqqında Məcəllə (1 mart 2016-cı il)
- “Uşaqların icbari dispanserizasiyası haqqında” Azərbaycan Respublikası Qanunu ( 5 mart 2013-cü il)
- “Sahibkarlıq yoxlamalarının təmzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanunu (2 iyul 2013-cü il)
- “İctimai iştirak haqqında” Azərbaycan Respublikası Qanunu (22 noyabr 2013-cü il)
- “Bələdiyyə qulluqçularının etik davranışı haqqında” Azərbaycan Respublikası Qanunu (28 aprel 2015-ci il)
- “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanunu (30 sentyabr 2015-ci il)
- “Dini ekstremizmlə mübarizə haqqında” Azərbaycan Respublikası Qanunu (30 sentyabr 2015-ci il)
- “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikası Qanunu (14 aprel 2017-ci il)
- “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikası Qanunu (30 iyun 2017-ci il)

15. 26 sentyabr 2016-cı ildə referendum keçirilmiş, onun nəticələrinə əsasən Azərbaycan Respublikası Konstitusiyasına insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsinin konstitusion möhkəmlənməsinə, dövlət idarəetməsinin təsirli və çevik mexanizminin formalaşmasına və həyata keçirilən iqtisadi islahatların effektivliyinin təmin olunmasına istiqamətlənmiş müvafiq dəyişiklər edilmişdir.

16. Qeyd olunan dəyişikliklər digərləri ilə yanaşı, insan ləyaqətinin müdafiəsi və təminini, hüquqlardan sui-istifadənin yolverilməzliyini, şəxsi məlumatların toxunulmazlığını, dövlət

orqanları tərəfindən özbaşınalığı istisna edən vicdanlı davranış hüququnu, insan hüquqlarına və azadlıqlarına vurulmuş zərərə görə dövlət qulluqçuları ilə yanaşı dövlətin mülki məsuliyyətini, hər bir şəxsin onun işinə inzibati və məhkəmə qaydasında qərəzsiz baxılması hüququnu, həmçinin dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və məmurların hərəkətlərinə və hərəkətsizliyinə dair məhkəməyə müraciət imkanını nəzərdə tutur.

17. Qeyd etmək lazımdır ki, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Planı" ölkədə insan hüquqları və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən ardıcıl tədbirlərin tərkib hissəsi olaraq qalır və özündə digərləri ilə yanaşı, normativ-hüquqi bazanın təkmilləşməsi sahəsində fəaliyyəti ehtiva edir.

18. Azərbaycan Respublikası Prezidentinin qeyd olunan Milli Fəaliyyət Planının təsdiq olunması haqqında Sərəncamına uyğun olaraq, normativ hüquqi aktların tətbiqi zamanı insan hüquqlarının müdafiəsi sahəsində Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə riayət olunmasına nəzarəti gücləndirmək mərkəzi icra hakimiyyəti orqanlarına tapşırılmış, məhkəmələrə və Baş Prokurorluğa isə tövsiyə olunmuşdur.

19. Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə koordinatordur. Bununla bərabər, Müvəkkil ölkədə insan hüquqlarının və azadlıqlarının müdafiəsi üzrə nəzarət mexanizmi kimi fəaliyyətini davam etdirir. Müvəkkil tərəfindən insan hüquqlarının və azadlıqlarının təmin olunması və müdafiəsi vəziyyəti ilə bağlı illik hesabat hazırlanır və Azərbaycan Respublikası Prezidentinə təqdim olunur. Müvəkkil, həmçinin qeyd olunan hesabat ilə Azərbaycan Respublikası Milli Məclisində də çıxış edir.

20. Əhalinin müxtəlif kateqoriyalarının hüquq və azadlıqlarının təmin olunması sahəsində fəaliyyətin koordinasiyası məqsədi ilə Müvəkkil yanında məhbusların, qaçqınların və məcburi köçkünlərin, yaşlıların, uşaqların, qadınların, hərbi qulluqçuların müdafiəsi, işgəncə və korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış müşavirlər fəaliyyət göstərir. İxtisaslaşmış müşavirlər tərəfindən mütəmadi olaraq müvafiq sahələrdə milli qanunvericilik və beynəlxalq-hüquqi aktlar təhlil edilir, həmçinin ayrı-ayrı istiqamətlər üzrə təkliflər və tədbirlər planı hazırlanır.

**İnsan hüquqları sahəsində məlumatlılığın artırılması, peşəkar hazırlıq və təlim**

21. Azərbaycan Respublikasında dövlət qulluqçularının, məhkəmə, Baş Prokurorluq əməkdaşlarının, Ombudsman Aparatı işçilərinin, həmçinin bələdiyyələrin peşəkar hazırlığının və təliminin təmin olunmasına istiqamətlənən tədbirlərin yerinə yetirilməsi davam etdirilir.

22. "Avropa Şurasının Azərbaycan üçün 2014-2016-cı illərdə fəaliyyət planı" çərçivəsində Ədliyyə Akademiyası tərəfindən Avropa Şurası və Avropa İttifaqı ilə

bərabər aşağıdakı layihələr uğurla həyata keçirilmişdir: “Məhkəmələrin effektivliyinin artırılmasının, hakimlər üçün təlimlərin təkmilləşdirilməsi və məhkəmələrin özünüidarəedilməsi üçün təlimlərin təkmilləşdirilməsinə dəstək” və “İnsan hüquqları üzrə Avropa Konvensiyasının və İnsan hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun tətbiqi”.

23. 2016-cı ildə Ədliyyə Akademiyası Penitensiar Xidmət Qızıl Xaç Beynəlxalq Komitəsi (BQXK) ilə birlikdə beynəlxalq ekspertlərin iştirakı ilə “Məhbuslarla davranışın yenilənmiş minimal standart qaydaları” mövzusunda təlimlər keçirilmişdir.

24. 2017-ci ilin yanvarında Avropa Şurasının və Ədliyyə Nazirliyinin penitensiar sistemin təkmilləşdirilməsi üzrə birgə layihəsi başlamışdır. Layihənin məqsədi məhkumlar və penitensiar idarə əməkdaşları üçün tibbi xidmətlərin keyfiyyətini Avropa standartları və qabaqcıl dünya praktikasına uyğun vəziyyətə gətirməkdir. Layihəyə uyğun olaraq həbsxanaların tibbi heyətinin vərdişlərinin, həmçinin nəzarətçilərin peşəkar səviyyəsinin artırılması nəzərdə tutulur.

25. Azərbaycanın insan hüquqları sahəsində hüquqşünasların tədrisi üzrə Avropa proqramı (HELP) ilə əməkdaşlıq çərçivəsində birinci instansiyanın müxtəlif məhkəmələrinin hakimləri üçün təlimlər keçirilmişdir. 2017-ci ildə Avropa Şurasının və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 6-cı (ədalətli məhkəmə baxışı hüququ) və 14-cü (ayrı-seçkiliyin qadağan olunması) maddələrinin öyrənilməsinə həsr olunan müxtəlif məhkəmə aparatlarının əməkdaşları üçün ixtisas artımı üzrə kurslar keçirilmişdir.

26. Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun öyrənilməsi və tətbiqi üzrə beynəlxalq ekspertlərin iştirakı ilə daimi əsasda təlimlər keçirilir.

27. Daxili İşlər Nazirliyi tərəfindən mütəmadi olaraq insan hüquqları üzrə müvafiq tədris proqramları və metodik vəsaitlər hazırlanır. Yerlərdə həyata keçirilən peşə hazırlığının 80 faizindən çoxu insan hüquqları və azadlıqları məsələlərinə həsr olunur.

28. Dövlət Miqrasiya Xidmətinin Tədris mərkəzində müvafiq struktur bölmələrinin əməkdaşları üçün miqrantların hüquqları, işgəncələrin, zorakılığın və qeyri-insani davranışın qadağan olunması və bu sahədə lazım olan tədbirlər üzrə müvafiq struktur bölmələrin əməkdaşları üçün təlimlər keçirilir. Yalnız Dövlət Miqrasiya Xidmətində hesabat dövrü ərzində insan hüquqları mövzusu üzrə ümumiyyətlə 35 təlim keçirilmişdir.

29. Maarifləndirmə proqramı çərçivəsində Mərkəzi Seçki Komissiyası səsvermədə ilk dəfə iştirak edən gənclərin və seçicilərin məlumatlandırılmasına xüsusi diqqət ayırır, aktivliyin artırılması və seçkilərdə iştiraka çağırış üçün müvafiq dövlət orqanları və vətəndaş cəmiyyəti institutları ilə birgə müxtəlif seminarlar və təlimlər təşkil edir.

30. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə birlikdə vəzifəli şəxslərin və mütəxəssislərin insan hüquqları haqqında məlumatlılığının artırılması, o cümlədən kütləvi informasiya vasitələrinin köməyi ilə artırılmasına istiqamətlənən tədbirlər keçirilir.

## Mülki və siyasi hüquqlar

### Fikir və söz azadlığı, informasiya azadlığı

31. Fikir və söz, informasiya azadlığının təşviq edilməsi Azərbaycan Respublikasında hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulmasının əsas şərtlərindən biridir. Dövlətin informasiya siyasəti Azərbaycan Respublikasının Konstitusiyasında əks olunan fikir və söz azadlığı və vətəndaşların informasiya almaq hüququnun ardıcıl və tam təminatına istiqamətlənmişdir.

32. Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsinə uyğun olaraq kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağan olunur.

33. Fikir və söz azadlığı Azərbaycan Respublikasının Konstitusiyası və digər müvafiq qanunvericilik aktları ilə təmin olunur. Qeyd olunan hüququn səmərəli həyata keçirilməsi məqsədi ilə Hökümət kütləvi informasiya vasitələrinin azadlığının təmin olunmasına və onların maliyyə-texniki bazasının möhkəmləndirilməsinə istiqamətlənən müxtəlif tədbirlər həyata keçirir. Bu tədbirlərə kütləvi informasiya vasitələrinə verginin azaldılması, onlara maliyyə vəsaitinin verilməsi, dövlət büdcəsi hesabına onların borcunun ödənilməsi və birbaşa maliyyə yardımı daxildir.

34. Hökumət tərəfindən dövlət büdcəsindən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna maliyyə yardımı ayrılır. Maliyyə dəstəyi ilk növbədə fikir və söz, informasiya azadlığının inkişafı, KİV-lərin müstəqilliyinin dəstəklənməsi, jurnalistlərin peşəkarlığının artırılması, onların sosial müdafiəinin gücləndirilməsi, onların işinin inkişafına və dəstəklənməsinə istiqamətlənən layihə və proqramların maliyyələşməsi üçün nəzərdə tutulub.

35. Hal-hazırda Azərbaycanda KİV sayı 5000-dən artıqdır. Ölkədə internet istifadəçilərinin sayının surətli inkişafı əhəmiyyətli amildir və hazırda bu göstərici əhalinin 78 faizini təşkil edir.

36. Qeyd etmək lazımdır ki, “Teleradio yayımı haqqında” Azərbaycan Respublikası Qanunu informasiya azadlığının, hər bir insanın fikir və söz azadlığının, onun açıq və azad müzakirələrin keçirilməsi hüququn təmin olunmasına istiqamətlənən televiziya və radio fəaliyyətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını təmzimləyir. Qeyd olunan Qanun Avropa Şurası ekspertləri tərəfindən təhlil edilmişdir və onun beynəlxalq standartlara uyğun olduğu qəbul edilmişdir. Azərbaycan Respublikası ərazisində xarici radiostansiyaların yayımı qadağan olunmayıb, sadəcə milli efir tezliklərində

dayandırılmışdır. Bu yerli kütləvi informasiya vasitələrinin inkişafına yardıma istiqamətlənmişdir və buna görə milli tezliklərdə yayım üçün öncəlik hüququ yerli radiostansiyalara verilir. Avropa ölkələrində olduğu kimi, Azərbaycanda da xarici radiostansiyaların qısa dalğalarda yayım imkanı, həmçinin onların internet, kabel kommunikasiyası vasitələri və peyk vasitəsi ilə yayımlanmasına imkan yaradılır.

37. Azərbaycan Hökuməti tərəfindən irəli sürülən "Diffamasiya haqqında" Qanun layihəsi Venesiya Komissiyası ilə müzakirə olunmuşdur. Venesiya Komissiyasının 2013-cü il tarixli rəyinə əsasən onun tətbiqində birmənalı olmayan yanaşmalar olduğundan cəmiyyət maraqlarının balansı nəzərə alınmaqla beynəlxalq təcrübənin öyrənilməsi davam etdirilir.

38. Avropa Şurasının və Avropa İttifaqının birgə layihəsi olan "Azərbaycanda ifadə azadlığı və KİV azadlığı" çərçivəsində 31 may 2016-cı ildə Bakı şəhərində "Diffamasiya" mövzusuna dairəvi masa keçirilmişdir.

39. Azərbaycanda KİV nümayəndələrinin, hüquq müdafiəçilərinin və vətəndaş cəmiyyəti nümayəndələrinin azad fəaliyyəti üçün bütün şərait yaradılmış, onların hüquq və azadlıqları tam həcmdə təmin olunur və onlar hər hansı bir təzyiqə məruz qalmırlar.

40. Kütləvi informasiya vasitələrinin nümayəndələrinə və yerli hüquq müdafiə təşkilatlarına qarşı təzyiqə və fiziki zorakılığa milli qanunvericiliklə yol verilmir. Qanun qarşısında bərabərlik prinsipini rəhbər tutaraq, cinayət məsuliyyətinə yalnız konkret cinayəti törətməkdə şübhəli bilinən şəxslər tutduğu mövqedən və ya fəaliyyət növündən asılı olmayaraq cəlb olunurlar.

41. Bütün hüquqpozmalar, o cümlədən jurnalistlərə və hüquq müdafiəçilərinə qarşı olan hüquqpozmalar hərtərəfli şəkildə tədqiq olunur, lazımi tədbirlər görülür, bu hüquqpozmaları törədənlər isə məhkəməyə cəlb olunur və müvafiq qaydada cəzalandırılır.

**Sərbəst Toplaşmaq azadlığı**

42. Sərbəst toplaşmaq azadlığına Konstitusiya, Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələrlə zəmanət verilir və "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunla tənzimlənir.

43. Qeyd olunan Qanununun müddəalarında qeyd olunur ki, sərbəst toplaşmaq azadlığı yalnız belə məhdudiyyətlərin qanunla nəzərdə tutulduğu və demokratik cəmiyyətdə milli təhlükəsizliyin və ictimai asayişin maraqları naminə, iğtişaşların və cinayətlərin qarşısının alınması məqsədi ilə, sağlamlıq və mənəviyyatın müdafiəsi, digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün lazım olduğu halda məhdudlaşdıra bilər.

44. Qanunun 5 maddəsinə əsasən yerli icra hakimiyyəti orqanlarına küçə yürüşünün marşrutu, toplantı ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən zəruri tədbirlərin görülməsi məqsədi ilə onun yeri və vaxtı haqqında yazılı bildiriş göndərilməlidir. Toplantının keçirilməsinə dair əsaslandırılmış qərar üç iş günü ərzində təşkilatçılara göndərilir. Eyni zamanda milli qanunvericiliyə müvafiq olaraq demokratik cəmiyyətdə lazım olan və qanunda nəzərdə tutulan məhdudiyyətlər tətbiq oluna bilər.

**Vicdan azadlığı**

45. Azərbaycan Respublikasında dini tolerantlığa yüksək səviyyədə riayət olunur, dini mövzulara dair beynəlxalq konfranslar və görüşlər keçirilir, vətəndaşlar arasında dini əqidəsinə görə ayrı-seçkiliyə yol verilmir.

46. Ölkədə fəaliyyət göstərən dini icmaların dövlət qeydiyyatı "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri əsasında həyata keçirilir. Qanunun 12 maddəsinə əsasən bütün dini qurumlar yalnız müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alındıqdan və dini qurumların dövlət reyestrinə daxil edildikdən sonra fəaliyyət göstərə bilərlər.

47. 2017-ci il oktyabr ayının 1-nə 783 dini icma dövlət qeydiyyatınan keçmişdir. Onlardan 755-i müsəlman, 28-i qeyri-müsəlman icmasıdır (17 – xristian, 8 – yəhudi, 2 – bəhayi və 1 – Krişnanın şüuru dini icması).

48. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini ədəbiyyatın (kağız və elektron daşıyıcılarının), audio və videomaterialların, malların və xidmətlərin və dini məzmunlu digər materialların ekspertizasının keçirilməsini təmin edir, onların istehsalına, idxalına və paylanmasına, həmçinin nəzarət markası ilə nişanlanandan sonra ixtisaslaşmış satış məntəqələrində satışına nəzarət edir.

49. Dini ədəbiyyat və digər dini materiallar yalnız müvafiq ekspertizadan keçdikdən və Dövlət Komitəsində nişanlandıqdan sonra idxal oluna bilər və azad yayıla bilər. Məhdudiyyətlər yalnız dini ekstremizmi, terrorçuluğu və vətənpərvərlik prinsiplərinə zidd olan ideyaları təbliğ edən, həmçinin sosial ədavətə və düşmənçiliyə açıq çağırış edən ədəbiyyata aiddir.

**Birləşmək hüququ**

50. Azərbaycan Respublikasının Konstitusiyasının 58 maddəsinə əsasən hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir.

51. Qeyd olunan hüququn həyata keçirilməsi məqsədi ilə müvafiq normativ aktlarla, o cümlədən siyasi partiyalar, həmkarlar ittifaqı, qeyri-hökümət təşkilatları haqqında Qanunlar qəbul edilmişdir.

52. Hökumət, vətəndaş cəmiyyətinin dəstəklənməsinə istiqamətlənən ardıcıl tədbirlər həyata keçirməyi davam etdirir. Bu sahədə qanunvericilik və institusional islahatların həyata keçirilməsi, qeyri-hökumət təşkilatlarına dövlət yardımı Konsepsiyasının qəbulu və Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması qeyri-hökumət təşkilatlarının inkişafı üçün əlverişli şərait yaratmışdır.

53. Yaradılmış “Fərdi elektron pencərə” elektron informasiya sistemi QHT-lərlə dövlət orqanları arasında qarşılıq informasiya mübadiləsini təmin edir, qanunla müəyyən olunan məlumatları və hesabatları elektron formada təqdim edir, digər elektron xidmətlər həyata keçirir.

54. Azərbaycan Respublikası qanunvericiliyində yerli qeyri-hökumət təşkilatlarının hüquqi şəxs kimi icbari dövlət qeydiyyatı nəzərdə tutulmayıb. Yerli qeyri-hökumət təşkilatları dövlət qeydiyyatı olmadan öz fəaliyyətini həyata keçirə bilərlər.

55. “Hüquqi şəxslərin qeydiyyatı və dövlət reyestri haqqında” Qanuna uyğun olaraq icbari dövlət qeydiyyatı kommersiya təşkilatları, həmçinin xarici hüquqi şəxslərin nümayəndəlikləri və ya filialları üçün nəzərdə tutulub. Vətəndaş cəmiyyətinin inkişafı məqsədi ilə “Sosial sifarişlər haqqında” Qanun layihəsi hazırlanmışdır.

56. 21 oktyabr 2016-cı ildə dövlət başçısı tərəfindən vətəndaş cəmiyyətin fəaliyyətinin dəstəklənməsinə, xarici donorlar tərəfindən qrantların verilməsi prosedurlarının sadələşdirilməsinə, maliyyə vasitələrinin şəffaflığının təminatı və məqsədyönlülüyünə istiqamətlən “Azərbaycan Respublikası ərazisində xarici donorlar tərəfindən qrantların verilməsi proseduranda “vahid pencərə” prinsipinin tətbiq olunması haqqında” Fərman imzalanmışdır. “Vahid pəncərə” prinsipi 1 yanvar 2017-ci ildən tətbiq edilməyə başlanılmışdır.

57. Qeyd olunan Fərmanın icra olunması məqsədi ilə 2017-ci ildə Hökumətin “Qrantların alınması müqavilələrin qeydiyyatı qaydaları” və “Azərbaycan Respublikası ərazisində xarici donorlar tərəfindən qrantın təqdim olunması hüququnun alınması qaydaları” Qərarlarına dəyişikliklər edilmişdir.

58. Dəyişikliklər nəticəsində qrantın verilməsi hüququn alınması prosesinə müsbət elementlər daxil edilmişdir:

- Donor qrantı verilməsi hüququnu almaq üçün birbaşa özünün Maliyyə Nazirliyinə müraciət etmək öhdəliyindən azad olunur. Bu hüquq, həmçinin alana verilir;
- Koordinasiya orqanı (Ədliyyə Nazirliyi) tərəfindən bütün prosedur həyata keçirilir. Bu orqan, sənədləri Maliyyə Nazirliyinə təqdim etməklə bir gün ərzində qrantı almaq hüququn verilməsi prosedurasını təmin etməli sonra isə qrantı qeydə almalıdır;

- Donor tərəfindən qrant təqdim etməyə hüquq almaq və qrantı qeydiyyatdan keçirmək üçün tələb olunan sənədlərin sayı iki dəfə azaldılmışdır, ayrı-ayrı sənədlərin apostil ilə təsdiq olunması haqqında tələb ləğv olunmuşdur;
- Donor tərəfindən qrant təqdim etmək üçün hüququn alınması haqqında sənədlərin baxılma müddəti iki dəfə azaldılmışdır.

59. Ədliyyə Nazirliyi və ya hər hansı bir digər orqan QHT-lərin daxili işlərinə müdaxilə edə bilməzlər. Təşkilatla onun üzvləri arasında mübahisələr təşkilatın üzvlərinin özlərinin müraciətləri əsasında məhkəmələr tərəfindən həll olunur.

60. “2016-2018-ci illərdə açıq hökumətə yardım üzrə Milli Fəaliyyət Planına” uyğun olaraq 2016-cı ildə Hökumətlə vətəndaş cəmiyyəti arasında dialoq platforması yaradılmışdır. Platformaya 10 dövlət orqanı, o cümlədən Prezident Administrasiyası və bütün istəyən QHT-lər qoşulmuşdur.

61. Bu gün Azərbaycandan 3200-dən çox QHT qeydiyyata alınmışdır. Onlardan 500-ə yaxını hüquq müdafiəsi sahəsində fəaliyyət göstərir. 2017-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən 484 QHT layihəsi maliyyələşdirmiş və ümumilikdə 3 049 900 manat ayrılmışdır. Onlardan 98 layihə bilavasitə əsas insan hüquq və azadlıqları ilə bağlı olmuşdur.

**Seçki hüququ**

62. Azərbaycan Respublikasında keçirilən seçkilərdə və referendumlarda müxtəlif siyasi maraqları təmsil edən siyasi partiyaların, siyasi partiya bloklarının, həmçinin referendum üzrə təşviqat qruplarının sərbəst və könüllü iştirakı tam təmin olunur.

63. Seçkilərə müşahidə Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə təmzimlənir. Seçki prosesinin müşahidə edilməsi müşahidəçi tərəfindən şəxsi təşəbbüslə və ya qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun təşəbbüsü ilə, həmçinin seçki sahəsində fəaliyyət göstərən QHT-lərin təşəbbüsü ilə müşahidəçi tərəfindən həyata keçirilir.

64. Azərbaycan Respublikasında keçirilən seçkilər çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin iştirakı ilə müşayiət olunur və yerli və xarici KİV tərəfindən ətraflı işıqlandırılır. 2014-cü ildə keçirilən bələdiyyə seçkilərində 50 551 yerli müşahidəçi iştirak etmişdir; 2015-ci ildə Milli Məclisə keçirilən seçkilərində - 40 beynəlxalq təşkilatdan 503 beynəlxalq müşahidəçi və 65 818 yerli müşahidəçi; 2016-cı il ümumxalq səsverməsində (referendumda) 18 beynəlxalq strukturdan 117 beynəlxalq müşahidəçi və 53 531 yerli müşahidəçi iştirak etmişdir.

65. 2016-cı ildə Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklərin edilməsi üzrə referendumda dörd struktur tərəfindən exit-poll keçirilmiş, bu strukturlardan ikisi

nüfuzlu beynəlxalq təşkilatla əməkdaşlıq etmişdir (ABŞ-nın “AJF&Associates Inc.” və Fransanın “Opinion Way” Sosioloji tədqiqatlar İnstitutu).

66. 1000 seçki məntəqəsində quraşdırılmış veb-kameralar vasitəsilə internet istifadəçiləri MSK-nın internet səhifəsinə daxil olaraq səsvermə prosesini, səslərin hesablanmasını, nəticələrin müəyyən edilməsini və səsvermənin nəticələri barədə rəsmi protokolların hazırlanmasını canlı şəkildə müşahidə edə bilərlər.

**Məhkəmə sisteminin islahatları**

67. Məhkəmə sisteminin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi, vahid internet portalın və “Elektron məhkəmə” informasiya sisteminin yaradılması, elektron xidmətlərin inkorporasiyası üzrə görülən tədbirlər vətəndaşlara hüquqi yardımın göstərilməsi prosesini əhəmiyyətli dərəcədə yaxşılaşdırır, həmçinin məhkəmə qərarların icrasına dair nəzarətin effektivliyi artırır.

68. Dövlət başçısının 13 fevral 2014-cü il tarixli Fərmanına uyğun olaraq ölkə vətəndaşları məhkəmələrə elektron formada müraciət etmək imkanı əldə ediblər. Dünya Bankı ilə “Ədliyyə sahəsində proqressiv xidmətlər və müasir məhkəmə infrastrukturu” adlı birgə layihə çərçivəsində məhkəmə sisteminin vahid internet-portalı *(www.courts.gov.az)* yeniləmiş və “E-məhkəmə” bölməsi yerləşdirilmişdir.

69. Dövlət başçısının 16 mart 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Orta və kiçik biznesin dəstəklənməsi üzrə Yol Xəritəsi”nə uyğun olaraq tezliklə vasitəçilik institutunun təsis edilməsi, müvafiq qanunvericilik bazasının yaradılması, vasitəçilik üzrə Şuranın yaradılması və digər təşkilati məsələlərin həlli nəzərdə tutulur.

70. Bununla əlaqədar olaraq beynəlxalq təcrübə öyrənmiş, Azərbaycan üçün potensial vasitəçilik modeli üzrə təkliflər hazırlanmışdır. Bu sahədə birgə layihələrin həyata keçirilməsi haqqında Avropa Şurası və Avropa İttifaqı ilə Saziş imzalanmışdır.

71. Dünya Bankı ilə “Ədliyyə sisteminin təkmilləşdirilməsi” adlı birgə layihə çərçivəsində məhkəmələrin müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş inzibati binaları istismara verilmişdir. Xüsusi funksionallıqla seçilmiş Sabunçu və Şəki məhkəmə komplekslərinin, Yasamal, Nərimanov rayon məhkəmələrinin, həmçinin Gəncə, Oğuz, Gədəbəy, Quba, İmişli və Qəbələ rayon məhkəmələrinin yeni binaları istismara verilmişdir. Hal-hazırda 8 məhkəmə üçün müasir binaların tikintisi başlanmışdır.

72. Avropa Şurasının ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) ekspertləri Azərbaycan Hökuməti tərəfindən ədalət mühakiməsi sistemində səmərəli islahatların həyata keçirilməsini, unikal məhkəmə infrastrukturunun yaradılmasını və ən müasir informasiya texnologiyaların və yeniliklərin tətbiq edilməsi sahəsində görülmüş işləri yüksək qiymətləndirmişdir.

73. 2017-ci ilin oktyabr ayında “Ədliyyənin kristal tərəzisi” müsabiqəsində, Avropa Şurası tərəfindən “Məhkəmənin nəbzi: idarəetmədə inqilab” layihəsinə görə Azərbaycana mükafat verilmişdir.

**Məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması**

74. 2017-ci ilin fevral ayında Azərbaycan Respublikası Prezidenti tərəfindən “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi” barədə Sərəncam imzalanmışdır.

75. Sərəncamda penitensiar sahədə fəaliyyətin təkmilləşdiriməsi, infrastrukturun yenilənməsi, məhkumların saxlanma şəraitlərinə nəzarətin gücləndirilməsi, istehsal sahələrinin genişləndirilməsi, peşəkar kadrlar korpusunun formalaşması, müəssisələrin etibarlı mühafizəsinin təşkili və korrupsiya və digər neqativ hadisələr üçün şərait yaradan halların aradan qaldırılması nəzərdə tutulur

76. Sərəncama uyğun olaraq, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına səmərəli nəzarətin təşkili və bu sahədə idarəetmənin səmərəliliyin artırılması məqsədilə Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin yaradılması nəzərdə tutulmuşdur. Bununla yanaşı olaraq, Azərbaycan Respublikası Prezidenti tərəfindən məhkum olunmuş şəxslərə münasibətdə elektron nəzarət vasitələrinin siyahısını və onlardan istifadə qaydalarını hazırlamaq Hökumətə tapşırılıb.

77. 20 oktyabr 2017-ci il tarixində “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə dəyişikliklərin edilməsi barədə” Qanun qəbul edilmişdir. Qanuna müvafiq olaraq, 300-ə yaxın dəyişiklik edilmiş, o cümlədən, 15 növ cinayət dekriminalizasiya olunmuş, azadlıqdan məhrum etməyə alternativ cəzalar 158 cinayətin sanksiyasına daxil edilmiş, zərərçəkmişlə barışıldığı və ya zərərin əvəzinin ödənildiyi təqdirdə 22 cinayət üzrə cinayət məsuliyyətindən azad etmə təyin olunmuşdur.

78. Azərbaycanda əfv və amnistiya institutları geniş şəkildə tətbiq edilir. Son 5 il ərzində Prezident tərəfindən 1378 məhkuma şamil edilmiş əfv haqqında 5 akt qəbul edilmişdir. Bundan əlavə olaraq, Milli Məclis tərəfindən təsdiq edilmiş amnistiya barədə 2 akt, 21 000 nəfərə münasibətdə tətbiq edilmişdir.

79. 6 yeni penitensiar müəssisənin tikintisi davam etdirilir, onların arasında qadınlar və yetkinlik yaşına çatmayanlar üçün penitensiar müəssisələr, Umbakı qəsəbəsində həbsxana kompleksi, Gəncə, Lənkəran və Kürdəmir şəhərlərində penitensiar müəssisələr mövcuddur.

80. Hökumət penitensiar sahədə beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi diqqət yetirir. 16-24 aprel 2015-ci il tarixində işgəncələrin qarşısının alınması üzrə BMT-nin Alt Komitəsinin üzvləri Azərbaycana səfər etmiş və bu səfər ərzində nümayəndə heyəti polis məntəqələrini, müvəqqəti saxlama yerlərini, istintaq təcridxanalarını, həbsxanaları, psixiatriya xəstəxanalarını və sosial yardımın göstərilməsi üzrə müəssisələri ziyarət etmişdirlər.

81. Hal-hazırda, 2000-ci ildə Beynəlxalq Qızıl Xaç Komitəsi ilə imzalanmış Sazişin qüvvədə olma müddətin növbəti dəfə uzadılması üzrə razılıq əldə edilmişdir. Bu Sazişə uyğun olaraq, təşkilatın nümayəndələri Azərbaycanda azadlıqdan məhrumetmə yerlərinə maneəsiz baş çəkmək hüququ əldə etmişdirlər.

82. Məhkumlara tibbi yardımın göstərilməsinin təkmilləşdirilməsi üzrə işlər davam etdirilir. Müasir tibbi avadanlıq alınır, diaqnostikanın yeni metodları tətbiq edilir, digər ölkələrlə təcrübə mübadiləsi aparılır və tibbi yardımın təşkili sistemi təkmilləşdirilir. Psixo-sosial yardımın göstərilməsi üzrə BQXK fəaliyyəti çərçivəsində azadlıqdan məhrumetmə yerlərində penitensiar xidmətinin psixoloq-əməkdaşları üçün təlimlər keçirilir.

83. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təsdiq edilmiş Azərbaycanın penitensiar müəssisələrində vərəmin aşkar olunması və laboratoriya (molekullar-genetik daxil olmaqla) diaqnostikasının bütün müasir metodları tətbiq edilir. Dünyada ilk dəfə olaraq, Azərbaycanın peniteniar müəssisələrində qısa müddət ərzində (100 dəqiqə) vərəmin dəqiq diaqnozunu qoymağa imkan verən yeni ekspress-test tətbiq edilib. Son 20 il ərzində, penitensiar müəssisələrində hər il vərəm xəstəliyi hallarının azalması müşahidə olunur, ölüm halları isə 100 dəfə azalmışdır. 2014-cü ildə həbsxana sektorunda fəaliyyət göstərən, dünyada yeganə olan, ÜST ilə əməkdaşlıq edən Beynəlxalq Tədris Mərkəzi açılmışdır.

84. “İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya”nın Fakültativ Protokoluna uyğun olaraq, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) milli preventiv mexanizm qismində təyin edilmişdir. Eyni zamanda, Ombudsman aparatında Milli Preventiv Qrup fəaliyyət göstərir.

85. Ombudsman və Milli Preventiv Qrup istənilən vaxt və əvvəlcədən xəbərdarlıq etmədən polis məntəqələrini, müvəqqəti saxlama yerlərini, istintaq təcridxanalarını, penitensiar və psixiatriya müəssisələrini ziyarət etmək və monitorinqi keçirmək hüququna malikdirlər.

86. Bununla yanaşı olaraq, Ədliyyə Nazirliyi nəzdində fəaliyyət göstərən, nüfuzlu hüquq müdafiəçiləri və insan hüquqları üzrə QHT-lərin nümayəndələrindən ibarət olan İctimai Komitə penitensiar müəssisələrə maneəsiz girmək, məhkumlarla fərdi görüşlər keçirmək, onların saxlanma şəraitləri ilə tanış olmaq səlahiyyətlərinə malikdir. Fəaliyyəti zamanı Komitə tərəfindən ölkənin müxtəlif penitensiar müəssisələrinə 600-dən çox maneəsiz giriş həyata keçirilib.

87. Qadın məhkumlarla rəftar üzrə BMT-nin Banqkok qaydalarına müvafiq olaraq, gender bərabərliyinə riayət edilir, qadınlar üçün cəzaçəkmə yerlərinin heyəti və istintaq təcridxanalarının xüsusi korpusları qadın əməkdaşlardan ibarətdir.

88. İstintaq təcridxanalarına daxil olan qadınların tibbi baxışı ilkin tibbi sanitar yardımın lazım olduğunu müəyyən edən müayinədən, həmçinin infeksion xəstəliklərin təyin

edilməsindən ibarətdir. Hamilələrin və südverən qadınların cəza təcridxanasına yerləşdirilməsinə yol verilmir. Qadınlar üçün nəzərdə tutulan müəssisələrdə və istintaq təcridxanalarında məhkum qadınların üç yaşına çatmamış uşaqlarının yerləşdirilməsi üçün uşaq evləri fəaliyyət göstərir. Uşaqların qidalanması, həmçinin onların yaxşı maddi-məişət şəraitləri dövlətin hesabına maliyyələşdirilir. Məhkum qadınlar xəstəliklərin profilaktikası məsələlərinə, o cümlədən, QİÇS, cinsi yolla ötürülən xəstəliklərə dair məlumat alırlar. Qadınlar üçün cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında qadın psixoloqlar çalışırlar.

**Korrupsiyaya qarşı mübarizə**

89. Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiqlənmişdir. Bu Fəaliyyət Planı antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsini, korrupsiya ilə bağlı cinayətlər üzrə təkliflərin hazırlanmasını, iqtisadiyyat sahəsində törədilən cinayətlərə görə məsuliyyətin yüngülləşdirilməsini və onların dekriminalizasiyasını, korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaşların maarifləndirilməsini, elektron xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsini, vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin genişləndirilməsini və ictimaiyyətin iştirakını nəzərdə tutur.

90. Vətəndaşların dövlət işlərinin idarə edilməsində birbaşa iştiraka cəlb edilməsi, mərkəzi və yerli dövlət orqanlarının fəaliyyətinə görə ictimai nəzarətin həyata keçirilməsi, ictimaiyyətlə qarşılıqlı fəaliyyətin təşkili dövlət strukturlarının fəaliyyətində şəffaflığının təmin edilməsinin əsasını təşkil edir. Bu məqsədlə 22 noyabr 2013-cü il tarixində Azərbaycan Respublikasının "İctimai iştirak haqqında" Qanunu qəbul edilmişdir.

91. Vətəndaşların təklif, ərizə və şikayətlərlə dövlət orqanlarına müraciət etməsi insan hüquqlarının həyata keçirilməsi və müdafiəsi sahəsində vacib vasitə təşkil edir. Bununla əlaqədar olaraq, 12 noyabr 2015-ci il tarixində hüquq pozuntuları haqqında hakimiyyətin yerli və mərkəzi orqanlarının məlumatlandırılmasına yönəldilmiş "Vətəndaşların müraciətləri" haqqında Qanun qəbul edilmişdir.

92. "Elektron hökumət portalının Nizamnaməsinin təsdiqi" və "Elektron xidmətlərin genişləndirilməsi üzrə Tədbirlər" haqqında Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2013-cü il tarixli Sərəncamı əsasında dövlət orqanlarının müvafiq xidmətləri "Bir pəncərə" prinsipi əsasında əhaliyə elektron xidmətlərin göstərilməsi məqsədilə "Elektron hökumət" portalına qoşulmuşdur.

93. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında apelyasiya şuralarının yaradılması haqqında" 3 fevral 2016-cl il tarixli Sərəncamı əsasında sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılmasının şəffaflığının və obyektivliyinin təmin edilməsi üçün Apelyasiya Şuraları yaradılmışdır.

94. İnnovativ metodların tətbiqi ilə vətəndaşlara keyfiyyətli xidmətlərin göstərilməsinin səmərəliliyin artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN) mərkəzlərinin genişləndirilməsi və ASAN tərəfindən təqdim olunan xidmətlərin siyahısının artırılması davam etdirilir.

95. Hal-hazırda "ASAN" xidmətin mərkəzləri şəxsi şirkətlər və 10 dövlət qurumu ilə birgə 250-dən çox xidmət göstərir. Yaradıldığı gündən etibarən 17 milyondan çox ərizəyə baxılmışdır.

96. "ASAN" xidmətin mərkəzləri ölkənin regionlarında da fəaliyyət göstərir. Bundan əlavə olaraq, "ASAN" mobil xidmətin xüsusi avadanlıqla təchiz edilmiş müvafiq nəqliyyat vasitələri ilə regionlardakı əhaliyə xidmətlər göstərilir.

97. 2015-ci ildə Dövlət Agentliyi radio-yayım vasitəsilə ölkənin daha geniş auditoriyasına lazımi məlumatların təqdim olunması məqsədilə "ASAN Radio 100 FM" yeni layihəsini başlamışdır.

98. 2015-ci ildə "ASAN" xidmət dövlət qulluğunun inkişafına verdiyi töhfəsinə görə BMT-nin nüfuzlu mükafatına layiq görülmüşdür. (*UN Public Service Award 2015*).

99. Azərbaycana səfər etmək istəyən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə vizaların verilməsi prosedurunun asanlaşdırılması məqsədilə 2016-cı ildən etibarən Dövlət Agentliyi tərəfindən "ASAN Visa" portalı işə başlamışdır.

100. 2016-cı ildə ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını, kiçik və orta sahibkarlığın inkişafını, əhalinin məşğulluq səviyyəsinin artırılmasını, ailə təsərrüfatların rəqabət qabiliyyətinin formalaşdırılmasını dəstəkləmək məqsədilə "ABAD" mərkəzləri yaradılmışdır (ailə biznesinə sadələşdirilmiş dəstək).

**İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının İcrası**

101. "2014-2018-ci illər üçün insan alverinə qarşı mübarizəyə dair Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi davam etdirilir. Avropa Şurasının Ekspert Qrupunun (GRETA) tövsiyələrini nəzərə alaraq, Hökumət tərəfindən "İnsan alveri qurbanlarının repatriasiya Qaydalarına" dəyişikliklər edilmişdir. Hökumətin 6 fevral və 22 aprel 2014-cü il tarixli Qərarları ilə "İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə yenidən inteqrasiyası Proqramı" və "Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətlərin zəmanət verilmiş həcmi" təsdiq edilmişdir.

102. Bununla yanaşı olaraq, Hökumətin 2 iyun və 14 oktyabr 2015-ci il tarixli Qərarları ilə insan alveri qurbanları üçün göstərilən yardımın idarə olunması və istifadəsinin şəffaflığının təmin edilməsi və insan alveri qurbanları üçün xüsusi müəssisələrin fəaliyyətinin təşkili üçün QHT-lərin cəlb edilməsi kimi yeni müddəalar bir sıra Əsasnamə və Qaydalara daxil edilmişdir.

103. 2016-cı il və 2017-ci ilin 9 ayı ərzində insan alverinin qurbanı olan 133 nəfərin cəmiyyətə yenidən inteqrasiyası təmin olunmuş, onlardan 43 nəfəri işlə təmin edilmiş və peşəkar kurslara göndərilmişdir. 130 qurbana birdəfəlik müavinət verilmişdir. Yetimxanalarda olan 49 azyaşlı uşaq (2016-cı il – 31 nəfər, 2017-ci ilin 9 ayı ərzində - 18 nəfər) müxtəlif təlim proqramlarına cəlb edilmişdir.

104. Statistikaya görə yetimxanalarda olan 117 insan alverinin qurbanı azyaşlı uşaq müxtəlif təlim proqramlarına, o cümlədən Heydər Əliyev Fondunun dəstəyi ilə 31 uşaq və “Azərbaycan Uşaq Birliyi” ictimai təşkilatının xətti ilə 35 uşaq məktəbdən kənar təhsil, məntiqi düşünmə və səhiyyə proqramlarına cəlb edilmişdir.

105. 2016-cı ildə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun insan alveri qurbanlarına yardım Mərkəzi tərəfindən 93 nəfər insan alveri qurbanına sosial, hüquqi, tibbi və psixoloji yardım göstərilmişdir.

106. 2017-ci ilin 6 ayı ərzində göstərilən kateqoriyaya aid olan 60 nəfər müxtəlif yardım növləri ilə təmin edilmiş və insan alveri qurbanlarına yardım Mərkəzinə göndərilmişdir.

107. Bəzi şəxslər ehtiyaca uyğun olaraq eyni zamanda bir sıra yardım növləri ilə təmin olunmuşlar. 15 nəfərə hüquqi, 20 nəfərə psixoloji, 12 nəfərə isə tibbi yardım göstərilmişdir. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin köməyi ilə 8 nəfərin işlə təmin olunması və 2 nəfərin peşə hazırlıq kurslarına göndərilməsi ilə bağlı tədbirlər görülmüşdür.

108. İnsan alverinin və məcburi əməyin qarşısının alınması, qurbanların müdafiəsi və bu sahədə maarifləndirmə ilə bağlı tədbirlər Avropa Şurasının, ATƏT-in və digər beynəlxalq təşkilatların müvafiq sənədlərində yüksək qiymətləndirilmişdir.

## İqtisadi, sosial və mədəni hüquqlar

### İqtisadi inkişaf və sosial siyasət

109. Ölkə iqtisadiyyatının möhkəm və balanslaşdırılmış inkişaf təminatı, eləcə də regionların inkişafının sürətləndirilməsi Azərbaycanın sosial-iqtisadi inkişaf mərhələsinin prioritet vəzifələrindən biridir.

110. Hazırda “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı”nın icrası həyata keçirilir. Bundan başqa, “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı” qəbul olunmuşdur.

111. Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2016-cı il tarixli Fərmanı ilə Davamlı İnkişaf üzrə Milli Koordinasiya Şurası yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016-cı il tarixli Sərəncamı ilə müvafiq strateji yol xəritələri təsdiq olunmuşdurlar. Milli iqtisadiyyat və iqtisadiyyatın 11 əsas sektorunu əhatə edən bu strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər

planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir.

112. Ötən müddət ərzində sənaye və texnologiyalar parklarının, sənaye zonalarının yaradılması istiqamətində ciddi addımlar atılmış, kimya, təkrar emalı, gəmiqayırma, yüksək texnologiyalar, yüngül sənaye, əczaçılıq sahələrində ixtisaslaşmış 8 sənaye parkı yaradılmışdır. Müasir tələblərə cavab verən və rəqabət qabiliyyətli istehsal infrastrukturuna malik bu sənaye parkları ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin edilməsi, innovativ idarəetmə və qabaqcıl texnologiyaların tətbiqi, yeni istehsal sahələrinin yaradılması və məşğulluğun təmin olunmasında əhəmiyyətli rol oynayır.

113. Son 14 ildə 34 minə yaxın sahibkara 2 milyard manatdan çox güzəştli kredit verilmişdir. Verilmiş kreditlərin 76 faizi regionların, 24 faizi isə Bakı şəhərinin qəsəbələrinin payına düşür. Sahibkarlıq fəaliyyətinə başlayanların dəstəklənməsi üçün Xaçmaz və Yevlax şəhərində yerləşən regional inkişaf mərkəzlərində biznes inkubatorlar yaradılmışdır.

114. Son 5 ildə ÜDM 8.9 faiz artaraq 2016-cı ildə 60.4 milyard manat təşkil etmişdir. 2003-2016-ci illər ərzində ölkədə ümumilikdə 1.26 milyon daimi olmaqla 1.68 milyon iş yeri yaradılmışdır. 2017-ci ilin 9 ayı ərzində 171 min daimi iş yeri olmaqla 226 min yeni iş yeri yaradılmışdır.

115. İqtisadi islahatların həyata keçirilməsi əhalinin həyat rifahının artmasına gətirib çıxarmış, nəticədə 2012-2016-cı illər ərzində əhalinin real gəliri 21.1 faizə qədər artmış və 2017-ci ildə 45.4 milyard manat təşkil etmişdir.

116. Beynəlxalq Əmək Təşkilatının metodologiyasına uyğun olaraq aparılan “Əhalinin iqtisadi aktivliyi” statistik tədqiqatın nəticələrinə görə 2012-ci il ilə müqayisədə 2016-cı ildə iqtisadi aktiv əhalinin sayı 6.9 faizə qədər artaraq 5012.7 min nəfər olmuş, məşğulluğun səviyyəsi 7.1 faiz artaraq 4759.9 min nəfər təşkil etmiş, işsizlik səviyyəsi isə 5.2 faizdən 5.0 faizə qədər enmişdir.

117. 2017-ci ilin 9 ayı ərzində ölkə iqtisadiyyatına xarici sərmayələr çoxluq təşkil etməklə 8.3 milyard ABŞ dolları sərmayə qoyulmuşdur.

118. Azərbaycanın tranzit imkanlarının realizə olunması üçün böyük layihələr həyata keçirilmişdir. Bu sahədə Beynəlxalq Dəniz Ticarət Limanının və Gəmiqayırma zavodunun tikintisini, TRACECA nəqliyyat dəhlizinin, eləcə də “Şimal-Cənub” və “Şərq-Qərb” nəqliyyat dəhlizləri çərçivəsində görülən işləri xüsusilə qeyd etmək lazımdır. 30 oktyabr 2017-ci il tarixində İpək Yolunun bir hissəsi olan və Avropanı Asiya ilə ən qısa yol ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilmişdir.

119. Azərbaycan son illər ərzində əldə etdiyi uğurlar beynəlxalq təşkilatların və maliyyə institutlarının hesabatlarında da öz müsbət əksini tapmışdır. Azərbaycan dünyanın ən nüfuzlu təşkilatlarından olan Dünya İqtisadi Forumunun “2017-2018 Qlobal Rəqabətlilik Hesabatı”da daha 2 pillə yüksələrək, 137 ölkə arasında 35-ci yerdə qərarlaşmışdır.

120. EXPO-2025 sərgisinin keçirilməsi üçün 2017-ci ildə Bakı şəhərinin namizədliyi irəli sürülmüşdür. Sərginin mövzusu olan "İnsan kapitalın inkişafı, daha yaxşı gələcəyin qurulması və alt mövzular ("İstedad – gələcək təhsil", "Həyat davamlığı – gələcək sağlamlıq", "Nailiyyət – gələcək iş yerləri") 2030-cu ilə qədər dövrdə davamlı inkişaf sahəsində BMT-nin gündəliyində əks olunan məqsədlərə uyğun olaraq hazırlanmışdır.

121. Hökumətin sosial siyasətin möhkəmləndirilməsi istiqamətində kompleks tədbirləri həyata keçirilməkdə davam edir. Ölkədə yoxsulluğun aradan qaldırılması məqsədilə "Azərbaycan Respublikasında 2008-2015-ci illər üzrə yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı" və "2011-2013-cü və 2014-2016-ci illər ərzində Bakı şəhəri və qəsəbələrinin sosial və iqtisadi inkişafı üzrə Dövlət Proqramı" həyata keçirilmişdir.

122. Dövlət Proqramları çərçivəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkədə yoxsulluğun səviyyəsi 2012-ci ildə 6 faizdən 2016-cı ilə 5.9 faizə qədər azalmışdır. Muzdlu işçilərin aylıq nominal əmək haqları 2012-ci illə müqayisədə 2016-cı ildə 1.3 dəfə artaraq 499.8 manat təşkil etmişdir.

123. Azərbaycan Respublikası Prezidentinin Sərəncam və Fərmanlarına uyğun olaraq, pensiyaların, eləcə də sosial müavinətlərın həcmi 1 fevral 2016-cı ildən etibarən 10%-dan çox artmışdır.

124. 1 yanvar 2017-ci ilə qədər 32.4 min ailənin 558.1 min üzvü ünvanlı dövlət sosial yardım almış, 368.8 min nəfərə sosial müavinətlər verilmişdir. Həmçinin, az təminatlı ailələrin sosial yardımdan asılılığının aradan qaldırılması məqsədilə, ölkədə ilk dəfə "Özünə dəstək" birdəfəlik sosial yardım proqramları layihələri həyata keçirilir.

125. Əhalinin içməli su ilə davamlı təminatının yerinə yetirilməsi, eləcə də kanalizasiya sistemlərinin yenilənməsi ilə bağlı layihələrin həcmi artmaqdadır. Hazırda Azərbaycan Hökuməti və Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya" layihəsi həyata keçirilir. 2030-cu ilə qədər inkişaf perspektivlərini nəzərə alaraq layihə su təchizatı və kanalizasiya xidmətlərindən istifadənin yaxşılaşdırılmasına hesablanmışdır. Hazırda, Qusar və Naftalan şəhərlərində içməli su təchizatı sisteminin bərpası, su üzrə layihələr başa çatdırılmış, Xaçmaz və Xızı şəhərlərində içməli su və kanalizasiya sistemlərinin tikintisi davam etdirilir.

**Səhiyyə**

126. Səhiyyə sisteminin maliyyə-texniki bazasının möhkəmləndirilməsi, yeni tibb müəssislərinin tikintisi, təmiri və bərpası, eləcə də ucqar yerlərdə onların müasir avadanlıqlarla təchizatı sahəsində əsaslı iş aparılmışdır. Hər il səhiyyə sisteminin inkişafı üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi artır. Son 14 il ərzində müasir tibb avadanlıqlarla təchiz olunmuş 500-dən çox tibb müəssisəsi təmir olunmuşdur. Tibb müəssisələri, həmçinin bu günə qədər yüzlərlə insan həyatını xilas etməyə yardım edən Talassemiya Mərkəzi tikilmiş və istifadəyə verilmişdir.

127. Səhiyyə sisteminə dövlət büdcəsindən ayrılan vəsait 2011-ci il ilə müqayisədə 2016-ci ildə 42.4% qədər artaraq 702.5 milyon manat təşkil etmişdir. Dövlət büdcəsindən səhiyyə sisteminə ayrılan vəsaitin artımı 2011-ci ilə müqayisədə 2016-cı ildə müalicəvi-profilaktik müəssisələrin sayının 7.3% qədər, xəstəxana çarpayılarının 6.8% qədər artırılmasına imkan vermişdir.

128. Səhiyyə sahəsində Hökumət tərəfindən görülən tədbirlərin nəticəsi olaraq ana və uşaqlara, onkoloji, endokrinoloji, irsi qan, xroniki böyrək çatışmazlığı və şəkər diabeti xəstəliyindən əziyyət çəkən insanlara təqdim olunan tibbi xidmətlərin səviyyəsi əsaslı dərəcədə artmışdır. Vaxtı-vaxtında peyvəndlərin vurulması sayəsində yoluxucu xəstəliklərə qarşı mübarizədə əsaslı nəticələrə nail olunmuşdur.

129. Azərbaycan Hökuməti ÜST, UNİCEF, Dünya Bankı, Avropa Komissiyası, BMT və digər təşkilatların müvafiq strukturları ilə fəal əməkdaşlıq edir və birgə layihələrin həyata keçirilməsini davam etdirir.

130. 2014-2018-ci illər üzrə Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, regionlarda müasir tibbi avadanlıqlar və qabaqcıl texnologiyalar ilə təchiz olunan yeni tibb mərkəzlərin yaradılması ilə bağlı işlər davam etdirilir.

131. Qeyd etmək lazımdır ki, Azərbaycanda şəkər diabeti ilə mübarizə davam etdirilir. Azərbaycanda diabetin müalicəsi və profilaktikası dövlətin tam nəzarəti altındadır. 2016-cı ildə qəbul olunan "2016-2020-ci illər üzrə şəkərli diabetdən əziyyət çəkən xəstələrə yardım üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi davam etdirilir.

132. Azərbaycan MDB ölkələri arasında şəkərli diabet ilə mübarizəyə dövlət dəstəyi proqramını qəbul edən ilk dövlətdir ki, bunun nəticəsi olaraq bütün şəkərli diabet xəstələri praktiki olaraq pulsuz müalicə və dərmanlarla – keyfiyyətli insulin və qanda şəkərin səviyyəsini yoxlamaq üçün cihazlarla təmin olunurlar.

133. Əhalinin şəkərli diabetlə mübarizədə məlumatlığının artırılması məqsədilə Heydər Əliyev Fondu tərəfindən müxtəlif layihələr həyata keçirilir. Fond həmçinin şəkərli diabetin müalicəsində zəngin təcrübəyə malik olan xarici şirkətlərlə əməkdaşlıq edir. Bununla yanaşı, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən böyüklər və eləcə də uşaqlar arasında ürək-damar, talassemiya və digər müxtəlif xəstəliklərin profilaktikası və müalicəsi üzrə əsaslı işlər aparılır.

***Reproduktiv sağlamlıq***

134. 2017-ci ildən başlayaraq ölkədə cinsə görə selektiv abortların qarşısının alınması, həmçinin bu sahədə gənclərin maarifləndirilməsi istiqamətində bir sıra layihələr həyata keçirilmişdir. Bu layihələr Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi və BMT-nin Əhali Fondunun dəstəyi ilə, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin iştirakı ilə həyata keçirilir.

135. Səhiyyə Nazirliyi və Təhsil Nazirliyinin dəstəyi ilə məktəblərdə reproduktiv sağlamlıq haqqında məlumatlılığın artırılması üzrə tədbirlər həyata keçirilir. Bundan başqa, yuxarıda göstərilən qurumların nümayəndələrindən ibarət İşçi qrupu tərəfindən ümumi orta təhsil səviyyəsində reproduktiv sağlamlıq sahəsində tədris üzrə xüsusi metodoloji materiallar hazırlanmışdır.

136. Ana və uşaqların sağlamlığın qorunmasına xidmət edən tibbi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosial siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

137. Ölkədə qadın və uşaqlara göstərilən müalicəvi-profilaktik yardımın keyfiyyətinin artırılması məqsədilə "2014-2010-ci illər üzrə ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair Dövlət Proqramı" qəbul olunmuşdur. Proqram regionlaşma prinsipi əsasında perinatal yardım islahatlarının davam etdirilməsini, doğum tibbi müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, reproduktiv sağlamlıq və ailə planlaşdırılması ilə bağlı tibbi maarifləndirmə üzrə işləri nəzərdə tutur.

138. Sözügedən Proqramın qəbul edilməsi, yeni doğulmuş uşaqların "Elektron sağlamlıq kartları" ilə təmin olunması, "Yoluxucu xəstəliklərin immun-profilaktikası" Proqramının qəbulu qadın və uşaqların sağlamlığının qorunması məsələsində vacib rol oynamışdır.

**Təhsil**

139. Ölkədə təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi və təhsil sistemində həyata keçirilən islahatlar bu sahədə müsbət dəyişikliklərə gətirib çıxarmaqdadır. 2016-cı ildə dövlət büdcəsindən təhsilə ayrılan xərclər 2011-ci illə müqayisədə 38,3% artmış və 1754,4 milyon manat təşkil etmişdir.

140. Əhalinin savadlılıq səviyyəsi və ibtidai səviyyədə təhsilin əhatə əmsalı hər il yüksəlir. Son beş il ərzində ibtidai səviyyədə təhsilin dəqiq əhatə əmsalı 99,7%-dan 99,8%-ə qədər artmışdır.

141. 6-21 yaşları arasında əhalinin təhsil əhatəsinin ümumi əmsalı 2011-2012-ci il tədris ilindəki 72,1%-dan 2016-2017-ci tədris ilində 85,6%-ə qədər artmışdır. 2016-2017-ci tədris ilinin əvvəlindən ölkədə 4452 gündüz ümumi təhsil müəssisəsi fəaliyyət göstərir ki, onlardan 348-i digər dillərdə təhsil verir.

142. Ölkədə 2011-ci illə müqayisədə 2016-cı ildə məktəbə qədər təhsil müəssisələrinin sayı 5% artmışdır. 2016-2017-ci tədris ilinin əvvəlindən Azərbaycanda 51 ali təhsil müəssisəsi fəaliyyət göstərir: onlardan 38-i dövlət və 13-ü qeyri-dövlətdir. Həmin müəssisələrdə oxuyan tələbələrin sayı 163779 nəfər təşkil edir.

143. 2011-2012 tədris ili ilə müqayisədə tələbələrin sayı 20633 nəfərə qədər və ya 14,4% artmışdır. 2016-2017 tədris ilinin əvvəlində oxuyan qadın tələbələr 47,3%, kişi tələbələr 52,7% təşkil etmişdir. Bununla yanaşı, valideynlərini itirmiş və ya valideyn

qayğısından məhrum olan dövlət uşaq müəssisələrinin məzunlarının təhsil haqları dövlət tərəfindən ödənilir.

144. Bununla yanaşı, ali və orta dövlət təhsil müəssisələrində ödənişli formada təhsil alan qaçqın və məcburi köçkünlər təhsil haqqından azaddır. Qaçqın və məcburi köçkünlərin uşaqları ödənişsiz dərs kitabları və dərs vəsaitləri ilə təmin olunurlar.

145. Ali təhsil müəssisələrinə qəbul edilmiş xaricilərə və vətəndaşlığı olmayan şəxslərə təhsil almaq üçün zəruri imkanlar yaradılır. Xarici tələbələrə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş bütün hüquq və azadlıqlardan istifadə hüququ, o cümlədən şəxsi əmlak, ailə və digər hüquqların qorunması üçün məhkəmə və dövlət orqanlarına müraciət etmək hüququ verilir. Xarici tələbələrə təhsilin verilməsi Respublikanın təhsil müəssisələrində qəbul edilmiş vahid təhsil proqramı və kurrikilumlar əsasında həyata keçirilir. Təhsil müəssisələrini bitirdikdən sonra xarici tələbələrə təhsil haqqında vahid dövlət sənədi verilir.

146. Son 5 il ərzində 6 minə qədər gənc müəllim kompensasiya verilməklə və maaşlara əlavə edilməklə kənd məktəblərinə göndərilmiş və bu ucqar kənd məktəblərində təhsil səviyyəsinə müsbət təsir göstərmişdir.

147. 2016-cı ildə Təhsil Nazirliyinin təşəbbüsü ilə tələbə kreditlərinin verilməsi yolu ilə ali təhsilə bərabər çıxışın əldə edilməsi məqsədini daşıyan ölkənin 10 ali təhsil müəssisəsi tərəfindən “Maarifçi” tələbə Kredit Fondu yaradılmışdır. Hazırda, Fond ölkənin 14 ali təhsil müəssisəsi ilə əməkdaşlıq edir.

148. Ölkənin ümumtəhsil müəssisələrinin I-IX siniflərində “Dünyanı dərk etmək” fənninin “İnsan və cəmiyyət” bölməsində Azərbaycan Respublikasının Konstitusiyasında və “Uşaq hüquqları haqqında Konvensiya”da əks olunmuş əsas hüquq və öhdəliklər öyrənilir.

**Sivilizasiyalar və mədəniyyətlərarası dialoq**

149. Azərbaycan Respublikası multikulturalizmin inkişafına töhfə verməkdə davam edir və sivilizasiyalar və mədəniyyətlər arası dialoqun möhkəmləndirilməsində fəal rol oynayır.

150. Azərbaycan Respublikasının təşəbbüsü ilə 2016-cı ilin 25-27 aprel tarixində Bakı şəhərində BMT-nin sivilizasiyalar Alyansı üzrə 7-ci Qlobal forum keçirilmişdir. Forum zamanı yeni çağırış və təhlükələrlə bağlı, ayrı-seçkilik, ksenofobiya, irqçilik, aqressiv separatizm, həmçinin mədəniyyətlər və dinlər arası dialoqun möhkəmləndirilməsi və multikulturalizmin təşviq edilməsinə yönəldilmiş tədbirlərin daxil olduğu məsələlərə toxunulmuşdur.

151. 2008-ci ildə Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə ildə iki dəfə keçirilən mədəniyyətlər arası dialoq üzrə Forum – “Bakı Prossesi” cəmiyyətdə tolerantlıq və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi, ayrı-seçkilik, ekstremizm və

ksenofobiyaya qarşı mübarizəyə yönəldilmiş beynəlxalq səylərin koordinasiyası üçün platformadır.

152. 15 may 2014-cü il tarixində, Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə “Bakı beynəlxalq multikulturalizm mərkəzi” yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanları ilə 2016-cı il “Multikulturalizm ili”, 2017-ci il isə - “İslam həmrəyliyi ili” elan edilmişdir.

153. Heydər Əliyev adına Fond ölkədə multikulturalizm və tolerantlığın inkişafına böyük töhfə verir. Fondun “Tolerantlıq ünvanı – Azərbaycan” layihəsi çərçivəsində Azərbaycanda, eləcədə onun hüdudlarından kənarda yerləşən məscid, kilsə və məbədlərin yenidənqurma və bərpası həyata keçirilir. Heydər Əliyev adına Fond və Müqəddəs Taxt arasında Roma zirzəmilərinin (katakomba) bərpasına dair ikitərəfli razılaşma əsasında Müqəddəs Marçellino və Pietro adına zirzəmilər bərpa edilmişdir.

154. Heydər Əliyev adına Fond həmçinin XIV əsrə aid olan Strasburq kafedral məbədinin beş pəncərə şəbəkəsinin bərpasına maliyyə dəstəyi vermiş, Parisdə Versal sarayının parkında saxlanılan, 1979-cu ildən bəşəriyyət irsinin Siyahısına daxil edilmiş qədim abidələrin bərpasını həyata keçirmiş, və Fransanın Orn departamentində X-XII əsrlərə aid olan 7 kilsənin bərpa edilməsinə yardım göstərmişdir. Roma şəhərindəki Kapitoliy muzeyinin bərpasına yardım göstərilmişdir.

## Ayrı-ayrı qrup və ya şəxslərin hüquqları

### Qadın hüquqlarının təşviqi və müdafiəsi və gender bərabərliyinin təmin edilməsi

155. Azərbaycan Hökuməti əhalinin məlumatlandırılmasının artırılması və qadınlara qarşı ayrı-seçkilik ilə mübarizəyə yönəldilmiş sistematik və ardıcıl tədbirlər həyata keçirməkdə davam edir.

156. 25 noyabr 2014-cü il tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ABŞ-ın İnkişaf üzrə Beynəlxalq Agentliyi, BMT-nın Əhali üzrə Fondu (UNFPA), BMT-nın Qaçqınların İşi üzrə Ali Komissarlığı, BMT-nın İnkişaf Proqramı, “Counterpart İnternational Təşkilatı” və Rasional İnkişaf lehinə Qadınlar Cəmiyyəti ilə birgə cəmiyyətin inkişafında qadınların rolunun gücləndirilməsi kampaniyasını keçirmişdir.

157. 2016-cı ildən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi qadınlar üçün mikro maliyyələşdirmə üzrə Azərbaycan Assosiasiyası ilə birgə “Maliyyə savadı” və “Öz biznesinə başla” məzmunlu xüsusi təlimlər keçirilir.

158. Qadınların, bazar iqtisadiyyatı şəraitində əmək bazarında kişilərlə bir bərabərdə rəqabətə qabiliyyətli olmağa və öz əmək qabiliyyətləri, potensial və bacarıqları sayəsində yeni əmək münasibətlərində özünütəsdiq etməyə can atması, onların dövlət idarəetməsi, sahibkarlıq, həmçinin digər sahələrdə daha geniş təmsil olunmasına imkan yaradır.

159. 1 yanvar 2017-ci il tarixinə dövlət qulluqçuları arasında qadınların tutduğu yer 28,6% (30090 nəfər) təşkil edir.

160. Həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan Respublikasında orta və ali təhsil sahəsində gender bərabərliyi əldə edilmişdir (15-24 yaş arası təhsilli qadınların eyni yaşlı təhsilli kişilərə nisbəti 100 % təşkil edir). Orta-xüsusi təhsil müəssisələrində tələbələrin ümumi sayının 67,4 %-ni qızlar təşkil edirlər.

161. Azərbaycan Respublikasının birinci Vitse-Prezidenti, Ailə, qadın və uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, Dövlət İmtahan Mərkəzinin sədri, Milli Məclis Sədrinin üç müavinindən biri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini, Auditorlar Palatasının müavini, Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin sədr müavini, Naxçıvan Muxtar Respublikası Komitəsinin sədri qadınlardır.

162. 2015-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərin nəticələrinə görə 125 seçilmiş deputatdan 21-i qadındır. 2014-cü ildə keçirilmiş bələdiyyə seçkilərində seçilmiş 14963 bələdiyyə üzvündən 5326, həmçinin bələdiyyə sədrindən 302-si qadındır.

163. Diplomatik xidmətdə 180-ə yaxın qadın çalışır, o cümlədən rəhbər vəzifədə - 2 Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri, 1 - Xüsusi Tapşırıqlar üzrə səfir və Xarici İşlər Nazirliyinin iki idarə rəisi çalışır.

164. 58 hakim, onlardan 7-si Ali Məhkəmənin hakimi, 12 – Apelyasiya və 39 Birinci instansiya məhkəməsinin, Ali məhkəmənin mülki işlər üzrə məhkəmə kollegiyasının, Sumqayıt və Cəbrayıl rayon apelyasiya məhkəməsinin sədri qadındır. Məhkəmə-hüquq Şurasının tərkibində, həmçinin qadın hakim təmsil olunur. Ədliyyə orqanlarında 1200-dən artıq qadın çalışır, bu faktiki əməkdaşların ümumi sayının 20,3%-ni təşkil edir. Onlardan 76-sı rəhbər vəzifələri tutur.

165. Daxili işlər orqanlarında 2810 qadın xidmət edir (1274 nəfər – böyük, orta və aşağı rəhbər tərkibdə, 1536 nəfər – mülki tərkibdə) və bu şəxsi heyətin ümumi sayının 10%-ni təşkil edir.

***Məişət zorakılığı ilə mübarizə***

166. 2015-ci ildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən özündə müxtəlif dövlət qurumları və reabilitasiya mərkəzlərindən alınmış məişət zorakılığı qurbanları və onların reabilitasiya, inteqrasiya və onlara hüquqi yardımın göstərilməsi üzrə tədbirlər, həmçinin bu zorakılığı törətmiş şəxslər barəsində məlumatı ehtiva edən xüsusi məlumat bazası yaradılmışdır.

167. Qadın və uşaqlara qarşı zorakılığın qarşısının alınması məqsədi ilə müxtəlif dövlət qurumlarının nümayəndələrindən ibarət xüsusi monitorinq qrupları yaradılmış, həmçinin məişət zorakılığının qurbanlarına dəstək üzrə mərkəzlər açılmışdır.

168. Qadın və uşaq QHT-ləri, Avropa Şurası və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək, ailə-məişət zəminində cinayətlərin qarşısının alınması istiqamətində fəal iş aparılır. “Ailə Psixoloqu” institutu, məişət zorakılığına məruz qalmış şəxslər üzərində monitorinq mexanizminin yaradılması planlaşdırılır.

169. Daxili İşlər Nazirliyi və ərazi polis orqanlarında “102” zəng xidməti sistem mərkəzi, “Məlumat portalı”, elektron poçt və qaynar xətt fəaliyyət göstərir. “2016-cı və 2017-ci ilin 9 ayı ərzində qadınlara qarşı 10304 cinayət, o cümlədən 3893 zorakılıqla bağlı cinayət qeydə alınmışdır. Onları törədən 5025 şəxs cinayət məsuliyyətinə cəlb edilmişdir.

**Uşaqların hüquqlarının müdafiəsi və təşviqi**

170. Ölkədə, bundan sonra da uşaqların hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və praktik tədbirlərin həyata keçirilməsi davam edir.

171. 2012-ci il tarixli “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarətinin Qaydası”na uyğun olaraq, dövlət uşaqları hər cür istismar, ağır, zərərli və təhlükəli əmək və təhlükəli təsirdən qoruyur, sosial, hüquqi, iqtisadi, tibbi və tərbiyələndirici vasitələrlə uşaqların hüquqlarının pozulmasına yol verən səbəblərin aradan qaldırılması və qabağının alınması istiqamətində tədbirlər həyata keçirir.

172. 2016-cı il və 2017-ci ilin 9 ayı ərzində UNİCEF-in Nümayəndəliyi, ATƏT-in Bakıdakı Ofisi və QHT Alyansı ilə birlikdə “Uşaq hüquq klinikası” və “Polis uşaq otağı” da profilaktik qeydiyyatda olan 834 azyaşlı uşağa hüquqi yardımın göstərilməsi üzrə tədbirlər həyata keçirilmişdir.

173. 1 yanvar 2017-ci il tarixinə 18 yaşına qədər məhdud imkanlı 71,9 min uşağa, valideynlərini itirmiş və valideyn qayğısından məhrum olan 437 uşağın himayəçisinə, həmçinin gəlirlərindən asılı olmayaraq müharibə əlilləri, Çernobıl AES I və II qrup əlillərə, üzün müddət qulluq edən hərbiçilərin uşaqlarına aylıq sosial müavinət təyin edilmişdir.

Bundan əlavə, bir yaşına qədər 2707 uşaq üçün 2657 ailəyə və 5 uşaqdan artıq uşağı olan 3,1 min qadına 9000 uşaq üçün aylıq sosial müavinət ödənilmişdir. 99,2 min uşağın doğulması ilə bağlı bir dəfəlik müavinət ödənilmişdir.

174. Milli qanunvericiliyin təkmilləşdirilməsi çərçivəsində BMT-nin 2016-cı il tarixli irqi ayrı-seçkiliyin bütün növlərinin aradan qaldırılmasına dair tövsiyələri nəzərə alınmışdır. Komitənin yekun müşaidələrinin 32 bəndinə uyğun olaraq, uşaqlara doğum haqqında şəhadətnamələrin verilməsini valideynlərinin (xarici və vətəndaşlığı olmayan şəxslərə münasibətdə) yaşayış haqqında arayışın təqdim edilməsindən asılı olmayaraq verilməsi Azərbaycan Hökumətinə tövsiyə edilmişdir. Bununla bağlı, “Vətəndaşlıq vəziyyəti aktlarının Dövlət qeydiyyatına alınması qaydaları” na dəyişikliklərin edilməsi nəticəsində Qaydaların 2.5.7 yarımbəndi Hökumətin 21 iyul 2017-ci il tarixli qərarı ilə ləğv edilmişdir.

175. Qeyd etmək lazımdır ki, uşaq alveri, uşaq fahişəliyi, uşaq pornoqrafiyası, uşaq seks-turizmi yayılması üçün əlverişli şəraitin yaranmasının əsas səbəbləri olan və

uşaqların belə hərəkətlərə məruz qalması ehtimalını artıran yoxsulluğun yüksək səviyyəsi və aşağı inkişaf səviyyəsi kimi bu cür sosial faktorlar Azərbaycana xas deyil.

176. Ölkədə hər il təxminən 25-26 min cinayət hadisəsi baş verir, bunlardan təxminən 2%-i yetkinlik yaşına çatmayanlar tərəfindən törədilir. Bu cür işlərin statistikasını nəzərə alaraq, ölkədə yuvenal məhkəmələrin yaradılması məqsədə uyğun deyil, çünki bu məhkəmələr müvafiq dərəcədə yüklənməyəcəklər. Azərbaycan üçün yuvenal ədalət üzrə məhkəmələrin ixtisaslaşması modeli daha münasib sayıla bilər, belə ki qanunvericilik yetkinlik yaşına çatmayanların işləri üzrə ədalətin həyata keçirilməsi üçün lazımi tənzimləyici mexanizmləri nəzərdə tutulur.

177. Uşaqlara münasibətdə cismani cəza üçün məsuliyyət normaları Cinayət məcəlləsində və İnzibati-xətalar məcəlləsində öz əksini tapmışdır. Bununla yanaşı, "Məişət zorakılığın qarşısının alınması haqqında" Qanunda uşaqlara münasibətdə psixoloji, fiziki və digər qanun pozuntuların aradan qaldırılması üzrə tədbirlər nəzərdə tutulmuşdur.

**Əlilliyi olan şəxslərin hüquqların təşviqi və qorunması**

178. Hazırda Hökumət tərəfindən "Əlilliyi olan şəxslərin hüquqları haqqında" yeni Qanun layihəsinə baxılmaqdadır və onun hazırlanma prosesində ictimai təşkilatların və BMT-nin müvafiq Komitəsinin tövsiyə və təklifləri nəzərə alınmışdır. Həmin layihə "Əllilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının müddəalarına uyğun olaraq hazırlanmış və əlilliyin qarşısının alınması, dövlət zəmanəti və sosial təminat, abilitasiya və reabilitasiya, məşğulluq və digərləri daxil olmaqla qeyd olunan sahədə dövlət siyasətinin əsas prinsiplərini əhatə edir.

179. "Azərbaycan 2020: Gələcəyə baxış" Konsepsiyası əlilliyi olan şəxslərin cəmiyyətdən təcrid olmasının qarşısının alınması və sosial infrastruktura maneəsiz çıxışın əldə olunması üçün müvafiq layihələrin hazırlanması və həyata keçirilməsini, eləcə də qabiliyyətin və imkanların inkişafına və göstərilən şəxslərin məşğulluq imkanlarının genişləndirilməsinə töhfə verən sosial və peşəkar reabilitasiya mərkəzlərinin sayının artırılmasını nəzərdə tutur.

180. Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2015-ci il tarixli "Əlillik və sağlamlıq imkanlarının məhdudlaşdırılmasına qiymət sisteminin təkmilləşdirilməsi haqqında" Fərmanına uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş məlumat sistemində tibbi-sosial ekspertiza və reabilitasiya altsistemi (TSERAS) istifadəyə verilmişdir. TSERAS altsisteminin istifadəyə verilməsi əlilliyi və sağlamlıq imkanlarının məhdudlaşdırılmasına qiymət verilməsi ilə bağlı şəffaflığın təmin olunmasına şərait yaratmışdır.

181. 2017-ci ilin sentyabr ayında həyata keçirilməyə başlayan Avropa İttifaqının "Dövlət Məşğulluq Xidmətinin müasirləşdirilməsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək" adlı Tvinninq layihəsi çərçivəsində həssas əhali qruplarına,

xüsusilə əlilliyi olan şəxslərin məşğulluğunun stimullaşdırılması üzrə yeni xidmətlərin yaradılması nəzərdə tutulur.

182. “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və UNİCEF arasında 2016-2020-ci illər üçün Əməkdaşlıq Proqramı” çərçivəsində 18 may 2016-cı il tarixində uşaqların müdafiəsi və sosial müdafiə üzrə 2016-2017-ci illər üçün Dövri Fəaliyyət Planı imzalanmışdır. Plana uyğun olaraq “Sağlamlığı məhdud olan uşaqlara münasibətdə tətbiq olunan sosial inklyuziya üzrə xidmətlərin əsas prinsip və metodları” mövzusunda treninqlər həyata keçirilir.

183. 2015-ci ildə UNİCEF ilə birgə orta məktəblərdə sağlamlığı məhdud olan uşaqların inkluziv təhsilə cəlb olunması məqsədilə eksperimental proqrama start verilmişdir. 2016-2017-ci illərdə “Təhsilin başlanğıcında inkluziv təhsilin istifadə edilməsi” adlı eksperimental layihə 6 orta məktəbi əhatə etmişdir.

184. 14 dekabr 2017-ci il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən sağlamlığı məhdud olan şəxslər üçün 2018-2024-cü illər üzrə inkluziv təhsilin inkişaf etdirilməsinə dair Dövlət Proqramı təsdiq edilmişdir. Dövlət Proqramının məqsədi sağlamlığı məhdud olan şəxslərin təhsili üçün maneəsiz mühitin yaradılması və bütün səviyyələrdə təhsilə bərabər çıxışın təmin edilməsindən ibarətdir.

185. Əlilliyi olan şəxslərin dövlət hesabına mənzil və nəqliyyat vasitələri ilə təmin olunmasına yönələn tədbirlərin həyata keçirilməsi davam etdirilir. 2016-cı ildə qeyd olunan kateqoriya şəxslər üçün 252 ev (118 mənzil və 134 şəxsi ev) tikilmiş və istifadəyə verilmişdir. 2017-ci ilin 9 ayı ərzində 59 şəxsi ev tikilmiş və paylanmışdır.

**Əməkçi miqrantların hüquqların təşviqi və qorunması**

186. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin 3-cü hissəsinə uyğun olaraq dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.

187. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

188. Əmək Məcəlləsinə uyğun olaraq, əmək münasibətlərində işçilər arasında işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqlarının məhdudlaşdırılması qəti qadağandır.

189. Miqrasiya Məcəlləsinin 75-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş hallar istisna olmaqla, əməkçi miqrantlara əmək şəraiti ilə bağlı Azərbaycan Respublikasının vətəndaşları üçün qanunvericiliklə müəyyən olunmuş eyni şərtlər tətbiq edilir və onların əməyinin

ödənilməsi qanunvericiliklə Azərbaycan Respublikasının vətəndaşları üçün müəyyən olunmuş qaydada həyata keçirilir.

190. Əməkçi miqrantların əmək fəaliyyəti ilə bağlı bu Məcəllədə nəzərdə tutulmayan digər məsələlər Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

191. Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktlarında nəzərdə tutulan bütün zəmanətlər əməkçi miqrantlar, eləcə də onların ailə üzvlərinə tətbiq olunur. Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə əsasən hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.

192. Dövlət Miqrasiya Xidməti tərəfindən qanunsuz miqrasiyaya qarşı həyata keçirilən mübarizə tədbirləri zamanı aşkar olunan qanunsuz miqrantların ilk olaraq ölkə ərazisində yaşamalarının qanuniləşdirilməsi imkanları nəzərdən keçirilir. Şəxsin ölkə ərazisində yaşamasının qanuniləşdirilməsi mümkün olduqda bu istiqamətdə müvafiq addımlar atılır. Belə ki, 2013-2016-cı illər və 2017-ci ilin 9 ayı ərzində ümumilikdə 13112 nəfərin ölkə ərazisində yaşamaları qanunvericiliyin tələbləri çərçivəsində qanuniləşdirilmişdir.

**Qaçqın və məcburi köçkünlər**

193. Əhalinin demoqrafik artımını nəzərə alaraq hazırda Azərbaycan Respublikasında 1 mln. 200 min qaçqın və məcburi köçkün yaşayır.

194. Dövlət Neft Fondu və digər mənbələrdən ayrılan vəsait hesabına məcburi köçkünlər üçün respublikanın 30-dan çox şəhər və rayonlarında ümumi sahəsi 3.2 milyon kv.m. olan 96 müasir yaşayış kompleksi tikilmişdir.

195. Yeni qəsəbələrdə 152 məktəb, 58 mədəniyyət mərkəzi, 59 uşaq bağçası, 2 olimpiya idman kompleksi tikilmiş, 730 km yol, 965 km su, 1625 km elektrik və 465 km qaz boruları çəkilmişdir. Dövlət büdcəsində nəzərdə tutulan sərmayə xərcləri hesabına Məshəti türkləri üçün 762 ev tikilib başa çatmışdır.

196. Son 14 il ərzində məcburi köçkünlərin aylıq məişət müavinəti 4 dəfə, kommunal xidmətlər isə 4.5 dəfə artmışdır.

197. Azərbaycan Respublikası Prezidentinin "Məcburi köçkünlər və onlara bərabər şəxslər üçün vahid aylıq müavinətin təyin olunması haqqında" 23 yanvar 2017-ci il tarixli Fərmana uyğun olaraq şəxsi evlərdə müvəqqəti yaşayanlara 36 manat məbləğində vahid aylıq müavinət ödənilir.

198. Son 14 il ərzində 380 min əmək qabiliyyətli məcburi köçkünlərdən 200 min nəfəri büdcəli təşkilatlarda daimi iş yerləri, 161 min nəfəri isə müvəqqəti iş yerləri ilə təmin olunmuşdur. Dünya Bankı və Azərbaycan Hökuməti arasında Kredit Sazişi çərçivəsində

125 milyon manat dəyərində 910 mikro layihə həyata keçirilmişdir. Bundan başqa, 24 min məcburi köçkünə 14.8 milyon manat məbləğində kredit verilmişdir.

199. 2016-cı ildə Dünya Bankı ilə 78.5 milyon ABŞ dolları məbləğində yeni Saziş imzalanmışdır. Sahibkarlığa Dəstək Milli Fondunun xətti ilə sahibkarlıq üzrə sərmayə layihələrinin maliyyələşdirilməsi üçün 2 min məcburi köçkünə 40 milyon manat məbləğində imtiyazlı kreditlər verilmişdir. Son 14 il ərzində məcburi köçkünlər arasında yoxsulluğun səviyyəsi 75%-dən 12%-ə düşmüşdür.

200. “Uşaq hüquqları haqqında” Qanunun 39-cu maddəsinə əsasən, uşaqlar Azərbaycan Respublikasında qaçqın statusu almaq hüququna malikdirlər. Dövlət bu cür uşaqların müdafiəsi və humanitar yardımın təmin olunması üzrə müvafiq tədbirləri həyata keçirir, uşaqların valideynlərinin axtarışını təşkil edir, beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, QHT-lərin fəaliyyətinə lazımi dəstək verir. Hesabat dövrü ərzində qaçqın statusunun alınması ilə bağlı himayəsiz uşaqlar tərəfindən heç bir iddia olmamışdır.

## III. Nailiyyətlər, qabaqcıl təcrübə və problemlər

201. Azərbaycan Respublikası gələcəkdə də insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması və təşviqində, tərəfi olduğu beynəlxalq müqavilələrdən irəli gələn beynəlxalq öhdəliklərin yerinə yetirilməsində, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edilməsində, multikulturalizmin inkişafına öz töhfəsini verməkdə davam edilməsində qəti qərarlıdır.

202. Azərbaycan həmişə olduğu kimi, hökumətin dövri hesabatlarını vaxtı vaxtında BMT-nin müqavilə qurumlarına, həmçinin Avropa Şurasının müvafiq Komitələrinə təqdim etməyi təmin edəcək, eləcə də Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Planının həyata keçirilməsini davam etdirəcəkdir.

203. Bununla yanaşı, Azərbaycan Respublikası hazırda Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan Respublikasının ərazilərində insan hüquqları sahəsində tərəfi olduğu beynəlxalq müqavilələrin müddəalarının həyata keçirilməsi iqtidarında deyildir. Azərbaycan Respublikası Hökuməti Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində insan hüquq və azadlıqlarının pozulmasına görə həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək heç bir məsuliyyət daşımır.

204. Münaqişənin həllinin hüquqi və siyasi əsasları beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə BMT Təhlükəsizlik Şurasının 822 (1993-cü il), 853 (1993-cü il), 874 (1993-cü il) və 884 (1993-cü il) saylı qətnamələrində və BMT Baş Assambleyasının 62/243 (2008-ci il) saylı qətnaməsində, eləcə də beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarında əksini tapan ərazi bütövlüyü, suverenlik, dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin pozulmaması prinsiplərinə söykənir.

205. İşğal olunmuş ərazilərdə 738 tarixi abidə, 14 memorial kompleks və 1107 mədəniyyət nümunəsi dağıdılmış və qarət olunmuşdur. 373 məscid, qədim kilsə və digər müqəddəs ibadət yerləri dağıdılmış və qarət olunmuşdur.

206. Azərbaycana qarşı təcavüz nəticəsində Ermənistan tərəfindən beynəlxalq humanitar hüquq və insan hüquqları normalarının kobud şəkildə pozulması, çoxsaylı qətllər və kütləvi güllələmələr faktları, mülki şəxslərə münasibətdə işgəncə və digər qəddar və qeyri-insani davranış və cəzalar qeydə alınmışdır.

207. Azərbaycan Respublikasının Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına əsasən 12 iyul 2017-ci il tarixinə itkin düşmüş Azərbaycan vətəndaşlarının sayı 3868 nəfər olmuşdur. 2014-cü ilin iyul ayından etibarən Ermənistan tərəfindən girovda saxlanılan azərbaycanlı Dilqəm Əsgərov və Şahbaz Quliyevin taleləri Azərbaycan Hökuməti üçün çox ciddi narahatlıq predmeti olaraq qalmaqdadır.

208. 16 iyun 2015-ci il tarixində Avropa İnsan Hüquqları Məhkəməsinin Böyük Palatası “Elxan Çıraqov və digərləri Ermənistana qarşı” işi üzrə qərar qəbul etmişdir. Həmin iş üzrə icraat 2005-ci ilin aprel ayının 6-da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1992-ci ildə qovulduqları doğma Laçın rayonuna qayıtmaqdan və buna görə orada yerləşən mülklərindən istifadə etmək imkanından məhrum olan Azərbaycan Respublikasının 6 vətəndaşı tərəfindən Ermənistan Respublikasına qarşı verilmiş ərizəyə əsasən başlanmışdır. Məhkəmə öz qərarında mülkiyyət hüququnun, şəxsi və ailə həyatına hörmət hüququnun, eləcə də səmərəli hüquqi müdafiə vasitəsindən istifadənin davamlı olaraq pozulmasını qeyd etmişdir. Məhkəmə məcburi köçkünlərin mülkiyyət və öz evlərinə qayıtmaq hüququnu təsdiq etmişdir. Məhkəmə nəticəyə gəlmişdir ki, Ermənistan hərbi iştirak, hərbi texnikadan istifadə etməklə və ekspert dəstəyi vasitəsilə əvvəldən Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişənə cəlb olunmuş və Azərbaycan məcburi köçkünlərin hüquqlarının pozulmasına görə məsuliyyət daşıyır.

209. 2-5 aprel 2016-cı il tarixlərində Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri və təmas xəttinə yaxın ərazilərdə mülki əhalinin sıx yaşadığı Azərbaycanın nəzarəti altında olan məntəqələr ağır artilleriya və iri çaplı silahlardan intensiv atəşə tutulmuşdur. Ermənistan tərəfinin intensiv atəşi nəticəsində hərbçilər və mülki şəxslər qətlə yetirilimiş və yaralanmış, ev, məktəb və digər iaşə obyektləri dağıdılmışdır.

210. Azərbaycan Silahlı Qüvvələrinin cavab tədbirləri nəticəsində Azərbaycan Respublikasının 2000 hektar strateji cəhətdən vacib əraziləri işğaldan azad edilmişdir. Aprel hadisələrindən dərhal sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən Sərəncam imzalanmışdır. 2 ay ərzində kəndin bir hissəsi bərpa olunmuş, 50 fərdi yaşayış evi, məktəb və məscid tikilmişdir. Horadiz şəhərindən Cocuq Mərcanlı kəndinə 9 km uzunluğunda yol salınmışdır.

211. 4 iyul 2017-ci il tarixində Ermənistan silahlı qüvvələrinin məqsədyönlü və qəsdən atəşi nəticəsində Azərbaycanın Füzuli rayonun Alxanlı kəndində 2 yaşlı qız və onun nənəsi həlak olmuş, bir qadın isə yaralanmışdır.

212. Azərbaycan Respublikası bir daha dünya ictimaiyyətini Ermənistanı sülhə və işğal olunmuş Azərbaycan ərazilərindən silahlı qüvvələrini çıxarmağa məcbur etməyə çağırır.